# Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 164 (1772) 6 sentyabr 2018-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASIYA VASITƏLƏRININ İNKIŞAFINA DÖVLƏT DƏSTƏYI FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ


(əvvəli ötən saylarımızda)

**Hələ keçmiş SSRİ dövründə 1985-ci ildə Avstriyada, 1986-cı ildə Nikaraquada Azərbaycan mədəniyyətini və incəsənətini layiqincə təmsil edib. Azərbaycan müstəqillik əldə etdikdən sonra dəfələrlə Türkiyə, Almaniya, Kuba, Gürcüstan, İraq, Belçika, Hollandiya, Norveç, İran, Qazaxıstan və digər ölkələrdə uğurlu çıxışları olub.**

Solmaz Kosayeva eyni zamanda cəmiyyətin ictimai həyatında da fəal iştirak edir. Milli Məclisin 1995-ci il 18 avqust tarixli qərarı ilə Bakı şəhər məhkəmələrinin xalq iclasçısı seçilib.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm nazirliyi onu "Fəxri mədəniyyət işçisi" döş nişanı ilə təltif edib. 2016-cı ildən isə "Əməkdar Mədəniyyət İşçisi"dir.



# AZƏRBAYCANIN QADIN AŞIQLARI



Gülarə Azaflı (Gülarə Mikayıl qızı Zeynalova) 1959-cu ildə Tovuz rayonunun Azaflı kəndində görkəmli aşıq Mikayıl Azaflının ailəsində anadan olub. Aşıq ailəsində böyüdüyündən uşaqlıqdan bu sənətə maraq göstərib. Orta məktəbi bitirdikdən sonra təhsilini kollecdə davam etdirib.

Ustad ocağında böyüyən Gülarə xanım uşaqlıqdan aşıq sənətinə bağlanıb. Hələ gənc yaşlarından müsabiqələrdə iştirak edib və laureat olub, Gəncə şəhərindəki universitetdə "Çeşmə" folklor ansamblının bədii rəhbəri olub (1983-1994). Qadın aşıqları özündə birləşdirən "Aşıq Pəri məclisi"nin ilk üzvlərindəndir. Avropa və şərq ölkələrində Azərbaycan aşıq sənətini layiqincə təmsil edib, beynəlxalq festivallarda qalib olub.

Amerikanın San-Fransisko şəhərində keçirilən Dünya folklor festivalında da müvəffəqiyyətlə çıxış edib (2005 və 2011-ci illərdə).

O, dəfələrlə müxtəlif televiziya kanallarındakı musiqili ədəbi-bədii proqramlarda çıxış edib. "Aşıq Gülarə Azaflı" adlı videodiski buraxılıb, Fransada buraxılan "Aşıq Musiqisi Antologiyası" adlı CD-kompakt diskdə onun ifası da yer alıb.

Gülarə Azaflı eyni zamanda bədii yaradıcılıqla məşğul olur, şeirlər kitabı nəşr olunub. İctimai həyatda da fəaldır. Azərbaycan Aşıqlar Birliyi İdarə Heyətinin üzvüdür.

Hal-hazırda da ulu ozan sənətimizi ləyaqətlə yaşadır, el şənliklərində, respublika miqyasında keçirilən dövlət tədbirlərində və televiziya kanallarının musiqili proqramlarında çıxış edir. Yetirmələri olan gənc qızlar da onun sənət yolunu uğurla davam etdirirlər.

Gülarə Azaflı bir sıra dövlət mükafatları ilə təltif olunub, respublika Prezidentinin sərəncamı ilə ona "Əməkdar Mədəniyyət işçisi" fəxri adı verilib.

Samirə Zimirxan qızı Əliyeva 1981-ci ildə Bakıda anadan olub. Əslən Azərbaycanda aşıqlar yurdu kimi tanınan Tovuz rayonundandır. Orta məktəbi bitirdikdən sonra təhsilini davam etdirib. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində 1998-2002-ci illərdə rejissorluq üzrə bakalavr, 2002-2004-cü illərdə isə mədəniyyətşünaslıq üzrə magistratura təhsili alıb. 2005-ci ildən həmin universitetdə aşıq sənətindən dərs deyir. Sənətşünaslıq elmi üzrə fəlsəfə doktorudur.

Samirə Əliyeva 2008-ci ildə UNESCO-nun xətti ilə milli sənətin təbliği ili çərçivəsində keçirilən tədbirlərdə Fransada çıxış edən ilk qadın aşıqdır.

Samirə Əliyeva 2014-cü ildə Azərbaycan Prezidentinin Sərəncamı ilə "Əməkdar mədəniyyət işçisi" fəxri adına və Prezident Mükafatına layiq görülüb.

Telli Borçalı (Telli Sədi qızı Qurbanova) Borçalının Qasımlı kəndində aşıq ailəsində anadan olub. Onun atası sazda çalıb-oxuyub. Əmisi Nurəddin Qasımlı XX əsrin məşhur aşıqlarından olub. Qardaşı Tərmeyxan Qurbanov bu gün aşıqlar arasında özünəməxsus ifa tərzi ilə seçilən ustad sənətkardır.



Telli Borçalı bu gün Bakıda yaşayıb fəaliyyət göstərir. Ən populyar qadın aşıqlardandır. Tez-tez xarici ölkələrə dəvət alır.

Azərbaycan televiziya kanallarının populyar musiqi proqramlarında tez-tez çıxış edir.

Aşıq sənətinin incəliklərini mükəmməl bilir. Təkcə Azərbaycanda yox, onun hüdudlarından kənarda da çoxsaylı pərəstişkarları var. Zülfiyyə İbadova 1970-ci ildə Tovuz rayonunun Alakol kəndində anadan olub. Erkən gəncliyindən aşıq sənətinə meyil salıb. 16 yaşında qadın aşıqların "Aşıq Pəri məclisi"nə üzv olub. 1987-ci ildə Moskvada keçirilən festivalda, 1989-cu ildə isə Türkiyədə aşıqlar bayramında mükafat qazanıb. Bu gün Azərbaycannın ən çox tanınan və sevilən qadın aşıqlarından biridir. Bir çox ölkələrdə Azərbaycan mədəniyyətini və incəsənətini layiqincə təmsil edib. Hazırda aşıq kimi fəaliyyətini uğurla davam etdirməkdədir. 2017-ci ildən "Əməkdar Mədəniyyət İşçisi"dir.

Kamalə Məhyəddin qızı Qələndərli 1978-ci ildə Bakı şəhərində anadan olub. Uşaqlıqdan aşıq sənətinə həvəs göstərib, televiziya kanallarının musiqi proqramlarında çıxış edib. Ali təhsillidir.

Əvvəlcə kollecdə saz sinfində oxuyub, sonra isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rejissorluq fakültəsində bakalavr və magistratura təhsili alıb.

Dəfələrlə Rusiyada, Türkiyədə, İranda, Ukraynada və başqa respublikalarda solo konsertlər verib, musiqi və folklor festivallarında iştirak edib.



* * *

**Bu gün fəaliyyət göstərən qadın aşıqlar arasında Lətifə Çeşməli, Familə Göyçəli, Könül Bayramova, Rəfiqə Göyçəli, Aytəkin Əkbərova, Sevil Xıdırova və başqaları kimi məşhurları da var. Onların sayı çoxdur və hamısı haqqında bir məqalədə söhbət açmaq mümkünsüzdür.**

**Gülarə Azaflının rəhbərlik etdiyi qızlardan ibarət "Çeşmə" qrupu uğurlu çıxışları ilə gündən-günə pərəstişkarlarını artırmaqdadır.**


**Musa NƏBİOĞLU**

**Əməkdar Mədəniyyət İşçisi**